**Tütün və tütün məmulatı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında tütünün və tütün məmulatının istehsalı, ticarəti, idxalı, ixracı və istehlakı ilə bağlı münasibətləri tənzimləyir və keyfiyyətinin idarə edilməsinin hüquqi əsaslarını müəyyən edir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. tütün - yarpağı emal olunduqdan sonra tütün məmulatının istehsalında əsas xammal kimi istifadə edilən birillik texniki bitki;

1.0.2. tənbəki - yarpağı çubuqla çəkilən birillik texniki bitki;

1.0.3. fermentləşdirilmiş tütün - tütün məmulatının istehsalı üçün təbii və texnoloji prosesi keçmiş tütün yarpağı;

*1.0.4. tütün məmulatı – tütün yarpağından və onun komponentlərindən hazırlanmış, tərkibində nikotin, aktiv alkoloid, o cümlədən kanserogen maddələr olan və nikotinə aludəçilik yaradan məhsul (siqaretlər, papiroslar, siqarlar, siqarillalar, çubuq tütünü, nikotin tərkibli elektron siqaretlər və s.)*[1]

1.0.4-1. qızdırılan tütün məmulatı – tütündən (tütün qarışığından) və onun istehsalında istifadə edilən qeyri-tütün komponentlərindən ibarət, alışdırılmadan və tütün tüstüsü əmələ gəlmədən qızdırılma prosesində yaranan nikotin tərkibli aerozolun tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş məmulat. Qızdırılan tütün məmulatı elektron siqaret hesab edilmir;

1.0.4-2. elektron siqaret – qida məhsulları, tütün məhsulları, dərman vasitələri və tibbi cihazlar istisna olmaqla, nikotin tərkibli və ya nikotin tərkibi olmayan buxarın tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş və müştük və ya digər komponentləri, o cümlədən kartrici və flakonu olan və ya olmayan cihaz vasitəsilə istifadə etmək üçün nəzərdə tutulmuş məhsul. Elektron siqaretlərin flakonundan bir və ya bir neçə dəfə istifadə edilə bilər və ya onlar birdəfəlik kartriclərlə təkrar doldurula bilər.

1.0.5. nikotin - *tütünün və tənbəkinin tərkibində* mövcud olan alkoloidlər qrupuna aid maddə;[2]

1.0.6. tütün qatranı - yarımaye, qazabənzər tüstü kondensatı;

1.0.7. inqrediyent - tütünə qatılan tamlı maddələr, tütün və qeyri-tütün tərkibli əlavələr, habelə tütün məmulatının istehsalında istifadə olunan qeyri-tütün komponentləri;

1.0.8. tamlı maddə - tütün məmulatına xüsusi dad və ətir verilməsi üçün tütünə əlavə olunan qeyri-tütün maddələri;

1.0.9. qeyri-tütün komponentləri - tütün məmulatının istehsalında istifadə edilən siqaret kağızı, mürəkkəb, yapışqan maddələr, filtrlər, habelə tütündən fərqli olan hər hansı digər hissələr;

1.0.10. dövriyyə - sənaye emalını keçmiş tütünün, habelə tütün məmulatının satın alınması (o cümlədən idxalı), göndərilməsi (o cümlədən ixracı), saxlanması, topdan və pərakəndə satışı.

M a d d ə 2 . **Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Tütün və tütün məmulatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan və bu Qanunla əlaqədar qəbul edilmiş normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının digər qanunvericiliyindən ibarətdir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə tütün və tütün məmulatına dair münasibətlərin tənzimlənməsi və keyfiyyətinin idarə edilməsi barədə müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

M a d d ə 3 . **Tütünə və tütün məmulatına dair dövlət siyasətinin istiqamətləri**

Tütünə və tütün məmulatına dair dövlət siyasətinin əsas istiqamətləri tütün istehsalı sahəsində fəaliyyətin qiymətli və yüksək keyfiyyətli tütün məhsulunun yetişdirilməsinə, tütünün və tütün məmulatının ixracının artırılmasına, daxili tütün məmulatı bazarının qorunmasına, idxal olunan tütün xammalının yerli xammalla əvəz edilməsinə yönəldilməsi və əhalinin tütün məmulatının zərərli təsirindən qorumaq tədbirlərinin gücləndirilməsidir.

M a d d ə 4 . **Tütünün və tütün məmulatının istehsalının və dövriyyəsinin dövlət tənzimlənməsi**

4.0. Tütünün və tütün məmulatının istehsalının və dövriyyəsinin dövlət tənzimlənməsi aşağıdakıları nəzərdə tutur:

4.0.1. tütünün və tütün məmulatının keyfiyyətinin, istehsalının və dövriyyəsinin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul etmək;

4.0.2. tütün və tütün məmulatı bazarını öyrənmək, proqnozlar vermək, dövlət proqramı əsasında tütünçülüyün inkişafının əsas istiqamətlərini və tənzimlənmə mexanizmlərini müəyyənləşdirmək;

4.0.3. qiymətli və keyfiyyətli tütün məhsulunun yetişdirilməsinə və emalına dair aqrotexniki və texnoloji normalar müəyyən etmək;

4.0.4. tütün istehsalçılarının fəaliyyətini stimullaşdırmaq və sosial müdafiəsini təmin etmək;

4.0.5. tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrinin (bundan sonra – Reyestr) aparılması qaydasını və Reyestrin əsasnaməsini müəyyən etmək;

4.0.6. daxili istehsal nəzərə alınmaqla idxal olunan tütün məmulatına tarif kvotalarını müəyyən etmək;[3]

4.0.6-1. tütün məmulatının istehsalında yerli tütün xammalından istifadə həcmlərinə dair tələbləri müəyyən etmək;

4.0.7. tütün məmulatına dair aksiz vergilərinin dərəcələrini və tətbiqi qaydalarını müəyyən etmək;

4.0.8. tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətini həyata keçirmək;

4.0.9. tütün məmulatının istehlakının məhdudlaşdırılmasına yönəldilmiş sağlamlıq proqramları hazırlamaq və icrasını təmin etmək;

4.0.10. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4-1. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, qeydiyyatının yenidən rəsmiləşdirilməsi və Reyestrin aparılması

4-1.1. Sahibkarlıq subyektlərinin tütün məmulatının idxalını və istehsalını həyata keçirməsi üçün qeydiyyatı və qeydiyyatının yenidən rəsmiləşdirilməsi ilə bağlı icraat "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

4-1.2. Azərbaycan Respublikasında tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin subyektlərin müraciəti əsasında qeydiyyata alınır.

4-1.3. Qeydiyyata alınmış sahibkarlıq subyektləri Reyestrə daxil edilir və həmin subyektlərə Reyestrdən elektron və ya kağız daşıyıcıda çıxarış verilir. Reyestrdən çıxarışın verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilməlidir.

4-1.4. Tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması, Reyestrin aparılması qaydası və Reyestrin əsasnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

4-1.5. Reyestrə daxil edilən kommersiya və (və ya) vergi sirri təşkil etməyən məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet səhifəsində yerləşdirilməklə müntəzəm olaraq yenilənir və bu məlumatlar istifadəçilər üçün açıqdır.

4-1.6. Qeydiyyata alınmadan tütün məmulatının idxalı və istehsalı fəaliyyətinin həyata keçirilməsinə, o cümlədən bu fəaliyyət üzrə bu Qanunun 10.2-ci və 10.3-cü maddələrində nəzərdə tutulan qeydiyyat şərtlərinə riayət edilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

## II fəsil
## TÜTÜNÇÜLÜYÜN TƏŞKİLİNİN İQTİSADİ ƏSASLARI

### Maddə 5. **Tütün istehsalı**

5.1. Azərbaycan Respublikasında əmtəəlik tütün istehsalı üçün dövlət standartlarının tələblərinə cavab verən rayonlaşdırılmış tütün sortlarının toxumlarından istifadə edilməlidir.

5.2. Orijinal, super elit və elit tütün toxumlarının istehsalı sortun müəllifinin və ya patent sahibinin nəzarəti altında elmi tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında, reproduksiyalı tütün toxumlarının istehsalı dövlət və bu fəaliyyət növü ilə məşğul olan ixtisaslaşdırılmış özəl toxumçuluq subyektlərində həyata keçirilir.

Sort müəllifləri qanunvericiliyə uyğun olaraq fərdi qaydada super elit və elit tütün toxumlarının istehsalı ilə məşğul ola bilərlər. [4]

5.3. Tütün toxumları istehsalçıları onların sort tərkibinin təmizliyinə, sortluq və səpin keyfiyyətinə, təbii-iqlim şəraitinə uyğunlaşmasına və fitosanitar vəziyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

5.4. Tütünün becərilməsi, dərilməsi, düzülməsi, qurudulması və ilkin emalı normativ sənədlərə və texnoloji normalara uyğun olaraq həyata keçirilir.

M a d d ə 6 . **Tütünün emalı**

6.1. Tütünün təbii və sənaye emalı texniki şərtlərə uyğun olaraq tütün emalı müəssisələri tərəfindən həyata keçirilir. [5]

6.2. Təbii və sənaye emalı keçmiş tütün normativlərə uyğun olaraq qablaşdırılır, etiketləşdirilir və sertifikatlaşdırılır.

M a d d ə 7 . **Qiymətli və keyfiyyətli tütün istehsalı üzrə dövlət proqramı**

7.1. Qiymətli və keyfiyyətli tütün istehsalı üzrə dövlət proqramı Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsini, ənənəvi yetişdirilən botaniki tütün sortlarının ətirli tütün sortları ilə optimal nisbətdə əvəz edilməsini, istehsal olunan məhsulun keyfiyyətinin təmin olunması məqsədini daşıyır və aşağıdakıları nəzərdə tutur:

7.1.1. müəyyənləşdirilmiş tələbat əsasında tütün sortları toxumlarının ölkəyə gətirilməsini və istehsalının təşkilini;

7.1.2. tütün istehsalçılarına və tütün emalı müəssisələrinin mütəxəssislərinə yeni sortların becərilməsi və emalı texnologiyalarının öyrədilməsini;

7.1.3. tütünçülüyün müasir texnika ilə və texnoloji avadanlıqla təchiz olunması tədbirlərini;

7.1.4. proqramda nəzərdə tutulan məsələlərin maliyyə mənbələrinin müəyyən edilməsini, habelə bu sahəyə investisiyanın cəlb edilməsi tədbirlərini.

7.2. Qiymətli və keyfiyyətli tütün istehsalı üzrə dövlət proqramı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır və həyata keçirilməsi təmin edilir.

M a d d ə 8 . **Tütünçülüyün inkişafı üzrə iqtisadi tənzimlənmə tədbirləri**

8.1. Tütünçülük sahəsində elmi-tədqiqat və sort-sınaq işlərinin aparılması dövlət büdcəsi və cəlb olunan digər vəsaitlər hesabına maliyyələşdirilir.

8.2. Qiymətli və keyfiyyətli tütünün istehsalını stimullaşdırmaq məqsədilə tütün istehsalçılarına və tütün emalı müəssisələrinə azı bir il müddətinə verilən güzəştli kreditlər üzrə güzəşt məbləği sahibkarlığa yardım fondunun və bu kimi digər proqramların vəsaiti hesabına ödənilir.[6]

8.3. Məqsədli kreditlərin verilməsi, qaytarılması qaydaları *Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla* müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. [7]

M a d d ə 9 . **Tütün istehsalçılarına dövlət himayəsi**

9.1. Azərbaycan Respublikasında istehsal olunan tütün məhsulundan tütün məmulatının istehsalı dövlət tərəfindən stimullaşdırılır.

9.2. Tütün istehsalçıları ilə uzunmüddətli müqavilə əsasında kooperasiya əlaqələri quran, onlara resurslarla yardım edən və məhsullarını istehsal olunduğu ilin sonuna qədər satın alan tütün emalı müəssisələrinə məqsədli kreditlər alınmasında üstünlük hüququ verilir.

9.3. Tütünçülükdə mütərəqqi texnikanın və texnologiyanın tətbiqini təmin etmək məqsədilə lizinq əsasında texniki xidmətin, bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrlə təchizatın təşkili sahəsində sahibkarlıq fəaliyyəti stimullaşdırılır.

9.4. Tütün istehsalçılarına dövlət himayəsinin, habelə qiymətli və keyfiyyətli tütün istehsalının stimullaşdırılmasının digər forma və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

## III fəsil
## TÜTÜN MƏMULATININ İSTEHSALI

### Maddə 10. **Tütün məmulatının istehsalına dair tələblər**

10.1. Tütün məmulatının istehsalçıları tütün qarışığını bilavasitə müəssisədə hazırlamalıdırlar.

10.2. Tütün məmulatının istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması üçün qeydiyyat şərtləri aşağıdakılardır:

10.2.1. avadanlıqların alınmasına 34 (otuz dörd) milyon manatdan az olmayan məbləğdə investisiyanın qoyulması;

10.2.2. Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması, habelə barəsində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair qüvvədə olan qərarın olmaması;

10.2.3. vergi orqanlarında uçota alınmış təsərrüfat fəaliyyətinin həyata keçirildiyi obyektə dair mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin olması;

10.2.4. tütün məmulatının istehsalı üçün istifadə olunacaq ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamənin, standart nümunənin və ya ölçmə vasitəsinin tipinin təsdiqi barədə sertifikatın, habelə cihaz, alət, ölçmə vasitələri və sınaq avadanlıqlarının “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uyğunluğun qiymətləndirilməsinə dair sənədlərin olması;

10.2.5. keyfiyyət və təhlükəsizlik sınaqlarının aparılması üçün müvafiq sahədə akkreditasiya olunmuş sınaq laboratoriyası ilə (istehsalçının müvafiq sahədə akkreditasiya olunmuş sınaq laboratoriyası olmadığı təqdirdə) müqavilənin olması.

10.3. Bu Qanuna uyğun olaraq tütün məmulatının istehsalını həyata keçirən qeydiyyata alınmış sahibkarlıq subyektləri tütün məmulatının istehsalında yerli tütün xammalından (orta damarcığı qismən və ya tamamilə çıxarılmış tütündən) istifadə həcmlərinə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə riayət etməlidirlər.

10.4. Bu Qanunun 10.2.1-ci və 10.3-cü maddələri yalnız siqaret istehsalına şamil olunur.

10.5. Bu Qanunun 10.2.1-ci maddəsi yalnız yeni fəaliyyətə başlayan və ilk dəfə qeydiyyata alınan subyektlərə şamil edilir.

10.6. Bu Qanuna uyğun olaraq qeydiyyata alınmadan tütün məmulatının istehsalı qadağandır.

10.7. Bu Qanunun 10.2.2 – 10.2.5-ci və 10.3-cü maddələrində müəyyən edilən qeydiyyat şərtləri (Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması şərti istisna olmaqla) pozulduqda, habelə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində göstərilən hallarda tütün məmulatının istehsalı fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin qeydiyyatı ləğv edilir.

### M a d d ə 1 1 . **Tütün məmulatının tərkibində olan inqrediyentlərin açıqlanması**

11.1. Azərbaycan Respublikasında istehsal olunan tütün məmulatının tərkibində istifadə edilən inqrediyentlərin tam siyahısı istehsalçılar tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim edilən hesabatda əks etdirilir. Siyahıda hər növ tütün məmulatı (məhsul markası) üzrə onun adı və tərkibindəki inqrediyentlərin miqdarı azalma qaydasında açıqlanır.

11.2. İnqrediyentlərin tam siyahısında hər bir inqrediyentin funksiyası və həddi keçməyən miqdarının səviyyəsi göstərilməlidir.

11.3. Siyahıda hər məhsul markasının növünə nadir xüsusiyyətlər verən tamlı maddələr ayrılıqda açıqlanmaya və "təbii" və (və ya) "süni" tamlı maddələr kimi qruplaşdırıla bilər.

11.4. Müvafiq icra hakimiyyəti orqanı istehsalçılardan məhsulun tərkibində olan inqrediyentlər barədə məlumatları istehlakçılara təqdim etməyi tələb edə və ya özü çatdıra bilər.

11.5. Tütün məmulatının tərkibində olan inqrediyentlər barədə hesabatın forması və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

### M a d d ə 1 2 . **Tütün məmulatında nikotinin, tütün qatranının və karbon monoksidinin yuxarı həddi**

12.1. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasında istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının tərkibində hər ədəd üçün nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddini respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq müəyyən edir və bu normaların azaldılmasını tənzimləyir.

12.2. Tütün məmulatı istehsalçıları tərəfindən Azərbaycan Respublikasının ərazisində istehsal edilmiş və dövriyyəyə buraxılmış tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanına məlumat təqdim edilməlidir.

12.3. Tütün məmulatının tərkibində olan nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş laboratoriyalarda istehsalçı tərəfindən və ya onun hesabına beynəlxalq metodologiya əsasında təhlil edilir və testləşdirilir.

12.4. Tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı barədə məlumatın tərtibi və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

M a d d ə 1 3 . **Tütün məmulatı qutularının tərtibatı**

13.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatı qutularının tərtibatı beynəlxalq standartların tələblərinə cavab verməlidir. Yazılar Azərbaycan dilində çap edilməlidir.

13.2. Tütün məmulatının istehlakının insanların səhhətinə zərəri haqqında xəbərdarlıq yazısının mətni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və *tütün məmulatı* qutusunun yan tərəflərinin birində aydın, seçilən (kontrast), qalın hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmalı, hər hansı nəşr materialı və ya təsvirlə örtülməsinə, gizlədilməsinə, qutunun açılması zamanı zədələnməsinə və ya arası kəsilməsinə yol verilməməlidir.[8]

13.3. İstehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının hər qutusunun üstündə nikotinin, *tütün qatranının və karbon monoksidinin* miqdarı, habelə məhsulun istehsal olunduğu tarix və onların 18 yaşına çatmamış şəxslərə satılmasının qadağan edilməsi göstərilməlidir.[9]

13.4. İxrac edilən tütün məmulatı qutularının tərtibatı müqavilə şərtlərinə uyğun olaraq başqa dildə də aparıla bilər.

## I V f ə s i l
## TÜTÜNÜN VƏ TÜTÜN MƏMULATININ DÖVRİYYƏSİ

M a d d ə 1 4 . **Tütünün və tütün məmulatının idxalı və ixracı**

14.1. Xarici dövlətlərdən Azərbaycan Respublikasına dövlət reyestrində qeydiyyata alınmış, müəyyən edilmiş qaydada verilmiş uyğunluq sertifikatı və ya onun tanınması barədə şəhadətnaməsi olan və bu Qanunla müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən tütün və tütün məmulatı idxal oluna bilər.

14.2. Fiziki şəxslər tərəfindən öz şəxsi istehlakı üçün Azərbaycan Respublikasına gətirilməsinə icazə verilən tütün məmulatının miqdarı müvafiq qanunvericiliklə müəyyən edilir.

14.2-1. Tütün məmulatının idxalını həyata keçirən sahibkarlıq subyektlərinin qeydiyyata alınması üçün qeydiyyat şərtləri aşağıdakılardır:

14.2-1.1. Azərbaycan Respublikasının ərazisində azı 1 (bir) il olmaqla tütün məmulatının istehsalı fəaliyyətinin həyata keçirilməsi;

14.2-1.2. Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması, habelə barəsində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair qüvvədə olan qərarın olmaması;

14.2-1.3. vergi orqanlarında uçota alınmış təsərrüfat fəaliyyətinin həyata keçirildiyi obyektə dair mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin olması (sahibkarlıq subyektinin fəaliyyəti təsərrüfat subyekti (obyekti) ilə bağlıdırsa).

14.2-2. Bu Qanunun 14.2-1.1-ci maddəsi yalnız siqaret idxalına şamil olunur.

14.3. Hüquqi və fiziki şəxslər tərəfindən tütünün və tütün məmulatının idxalına aşağıdakı hallarda yol verilmir:

14.3.1. bu Qanuna uyğun olaraq tütün məmulatının idxalının həyata keçirilməsi üçün qeydiyyata alınmadıqda;

4.3-1. Bu Qanunun 14.2-1-ci maddəsində müəyyən edilən qeydiyyat şərtləri (Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması şərti istisna olmaqla) pozulduqda, habelə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində göstərilən hallarda tütün məmulatının idxalı fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin qeydiyyatı ləğv edilir.

14.3.2. tütünün və tütün məmulatının hər partiyası üçün qanunvericiliklə müəyyən edilən sertifikatları olmadıqda;

14.3.3. tütün məmulatı aksiz markası ilə markalanmadıqda;

14.3.4. tütün məmulatının qutusu üzərində *tütün* çəkməyin sağlamlığa zərərli təsiri barədə xəbərdarlıq, nikotinin, *tütün qatranının və karbon monoksidinin* miqdarı haqqında yazıları Azərbaycan dilində olmadıqda;[10]

*14.3.4-1. tütün və ya tütün məmulatları genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda;*[11]

14.3.5. qanunvericiliyə uyğun olmayan digər hallarda.

14.4. Tütünün və tütün məmulatın ixracı Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilir.

M a d d ə 1 4 - 1 . **Elektron siqaretlərin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi**

Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qadağandır.

M a d d ə 1 5 . **Tütünün və tütün məmulatının ticarəti**

15.1. Azərbaycan Respublikasında keyfiyyət göstəriciləri normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə cavab verən, müvafiq sertifikatları olan tütün və tütün məmulatı ticarət dövriyyəsinə daxil edilə bilər.

15.2. Tütünün və tütün məmulatının ticarəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq topdan və pərakəndə satış formasında həyata keçirilir.

15.3. Tütünün və tütün məmulatının satışı aşağıdakı hallarda qadağan olunur:

15.3.1. məhsulun hər partiyası üçün müvafiq sertifikatlar olmadıqda;

15.3.2. tütün məmulatı aksiz markası ilə markalanmadıqda;

15.3.3. tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müəyyən edilmiş yuxarı həddən çox olduqda;

*15.3.3-1. tütün və ya tütün məmulatları genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda;*[12]

15.3.4. tütün məmulatının qutusu üzərində *tütün* çəkməyin sağlamlığa zərərli təsiri barədə xəbərdarlıq yazısı olmadıqda;[13]

15.3.5. tütün məmulatının markalanması və qutularının tərtibatı müvafiq normativ sənədlərin tələblərinə uyğun aparılmadıqda;

15.3.6. 18 yaşına çatmamış şəxslərə satıldıqda;

15.3.7. avtomatlar vasitəsilə satıldıqda;

15.3.8. siqaret, papiros və siqarillalar ədədlə satıldıqda.

*15.4. Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir.*[14]

15.5. Tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə uşaq və yeniyetmələr üçün malların satışı yerlərində tütün məmulatının ticarətinə yol verilmir.

15.6. Tütün məmulatının ticarəti yerlərində *tütün* çəkməyin sağlamlığa zərərli təsiri, 18 yaşına çatmamış şəxslərə tütün məmulatının satışının qadağan edilməsi, habelə tütün məmulatından istifadənin məhdudlaşdırılmasına xidmət edən digər yazılar olmalıdır.

M a d d ə 1 6 . **Tütünün və tütün məmulatının dövriyyədən götürülməsi**

16.1. Tütünün və tütün məmulatının qeyri-qanuni dövriyyədən götürülməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

16.2. Tütün və tütün məmulatı dövriyyədən aşağıdakı hallarda götürülür:

16.2.1. qanuni istehsalı və dövriyyəyə daxil edilməsi barədə sənədləri olmadıqda;

16.2.2. məhsulun hər partiyası üçün müvafiq sertifikatlar olmadıqda;

16.2.3. tütün məmulatı aksiz markası ilə markalanmadıqda və ya saxta markalarla markalandıqda;

16.2.4. tütün məmulatının tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarı müəyyən edilmiş yuxarı həddən çox olduqda, *yaxud tütün və ya tütün məmulatları genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda;*[15]

16.2.5. tütün məmulatının tərkibinə daxil edilmiş inqrediyentlərin açıqlanmasına dair tələblər pozulduqda;

16.2.6. tütün məmulatı qutularının tərtibatı qanunvericiliklə müəyyən olunmuş qaydada aparılmadıqda;

16.2.7. məhsulun istehlak keyfiyyəti itirildikdə;

16.2.8. məhsulun sahibsiz olması müəyyən edildikdə;

16.2.9. *qanunda* nəzərdə tutulmuş digər hallarda.[16]

16.3. Qeyri-qanuni dövriyyədən götürülmüş tütün və tütün məmulatı bu Qanunun 16.2.4-cü, 16.2.5-ci və 16.2.7-ci maddələrində göstərilən hallarda qanunvericiliklə nəzərdə tutulmuş qaydada müsadirə edilir və məhv olunur, digər hallarda isə müəyyənləşdirilmiş qaydada istifadə edilir.

## V f ə s i l
## TÜTÜNÜN VƏ TÜTÜN MƏMULATININ KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİ

M a d d ə 1 7 . **Tütünə və tütün məmulatına dair normativ sənədlər**

17.1. Tütünə və tütün məmulatına dair normativ sənədlər onların istehsal, tədarük, emal, saxlanma, daşınma, qablaşdırma, markalanma və satış qaydalarını, şərtlərini və normalarını nizamlayan standartları və tələbləri müəyyən edir.

17.2. Azərbaycan Respublikasında istehsal edilən, habelə respublikaya gətirilən tütünün və tütün məmulatının keyfiyyət göstəriciləri qüvvədə olan normativ sənədlərin tələblərinə cavab verməlidir.

17.3. Tütünə və tütün məmulatına dair normativ sənədlərin tələblərinə əməl olunması bu sahədə sahibkarlıq fəaliyyəti göstərən bütün hüquqi və fiziki şəxslər üçün məcburidir.

M a d d ə 1 8 . **Tütünün və tütün məmulatının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi**

18.1. Azərbaycan Respublikasında istehsal edilən və respublikaya gətirilən tütünün və tütün məmulatının tərkibi əmtəə dəyərliliyi, sinfi (dərəcəsi), çəkim keyfiyyəti, nikotin, tütün qatranı və karbon monoksidi göstəriciləri üzrə təhlil edilir və qiymətləndirilir.

18.2. Tütünün və tütün məmulatının tərkibində sağlamlıq üçün zərərli maddələrin miqdarı müvafiq qaydada təsdiq edilmiş gigiyenik normativlərə uyğun olmalıdır.

18.3. Tütün məmulatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət reyestrində gigiyena qeydiyyatına alınır.

18.4. Keyfiyyət göstəriciləri qiymətləndirilmiş tütün, habelə gigiyena qeydiyyatına alınmış tütün məmulatı müvafiq qaydada sertifikatlaşdırılır.

M a d d ə 1 9 . **Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarəti**

19.1. Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin məqsədi hüquqi və fiziki şəxslər tərəfindən bu məhsulların istehsalını, tədarükünü, emalını, qablaşdırılmasını, saxlanmasını, daşınmasını, markalanmasını, satışını, idxalını və ixracını, habelə keyfiyyət göstəricilərini nizamlayan normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə əməl olunmasını təmin etməkdir.

*19.1-1. Sahibkarlara münasibətdə tütün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.*[17]

19.2. Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən edilir.

19.3. Bələdiyyələr, istehlakçılar və qeyri-hökumət təşkilatları tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə nəzarət funksiyalarını onların statusunu müəyyən edən qanunvericilik aktları ilə verilən səlahiyyətlər daxilində həyata keçirə bilərlər.

## V I  f ə s i l
## TÜTÜN MƏMULATININ İSTEHLAKININ AZALDILMASINA YÖNƏLDİLMİŞ TƏNZİMLƏNMƏ TƏDBİRLƏRİ

~~M a d d ə  2 0 . **Tütün məmulatının satışında həvəsləndirmə üsullarının məhdudlaşdırılması**~~[18]

~~20.1. Tütün məmulatının ticarətinə icazəsi olan hüquqi və fiziki şəxslərə məhsul satışında istehlakçıların həvəsləndirilməsi üçün aşağıdakı üsullardan istifadə edilməsi qadağan edilir:~~

~~20.1.1. kütləvi informasiya vasitələrində çap olunmuş və ya elan verilmiş kupon sahiblərinə güzəştlərin tətbiq edilməsi;~~

~~20.1.2. tütün məmulatının və onların yeni nümunələrinin pulsuz paylanması və ya mükafat kimi verilməsi;~~

~~20.1.3. tütün məmulatının lotereya, müsabiqə, idman yarışları, oyunlar üçün mükafat kimi təklif edilməsi;~~

~~20.1.4. tütün məmulatının satışı və istehlakı ilə bağlı uduşlu (o cümlədən siqaret qutularının və hissələrinin yığılması ilə) oyunların keçirilməsi;~~

~~*20.1.5. tütün və tütün məmulatını alanlara hədiyyə qismində başqa əmtəənin təklif edilməsi.*~~[19]

~~*20.2. Tütünün, tütün məmulatının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanların reklamı qadağandır.*~~[20]

~~*20.3. Tütün və tütün məmulatının istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü və 28-ci maddələrinə uyğun olaraq sponsor ola bilməzlər.*~~[21]

~~M a d d ə  2 1 . **Tütün məmulatının istehlakına dair məhdudiyyətlər**~~

~~21.1. Azərbaycan Respublikasında aşağıda göstərilən yerlərdə siqaret çəkmək qadağandır:~~

~~21.1.1. tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda;~~

~~21.1.2. inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində;~~

~~21.1.3. yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə;~~

~~21.1.4. uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində.~~

~~21.2. Mehmanxanalarda siqaret çəkənlər üçün xüsusi yerlər ayrılmalıdır.~~

~~21.3. Müəssisə, idarə, təşkilat rəhbərləri və digər işəgötürənlər iş yerlərində siqaret çəkmək üçün xüsusi yerlər ayrılmasını və görünən yerlərdə "siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.~~

~~21.4. Tədris müəssisələri müvafiq icra hakimiyyəti orqanının razılığı ilə tədris proqramlarına tütün məmulatının istehlakının sağlamlığa zərərli təsiri barədə mövzular daxil etməlidirlər.~~

**M a d d ə  2 2 . Tütün məmulatının istehlakına nəzarət tədbirləri**

22.1. Tütün məmulatının istehlakına nəzarət tədbirləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanır və həyata keçirilir. Tütün məmulatının istehlakına nəzarət tədbirləri dövlət ekoloji və sağlamlıq proqramlarının tərkib hissəsi olaraq dövlət büdcəsi və digər mənbələr hesabına maliyyələşdirilir.

22.2. Bələdiyyələr, istehlakçılar və qeyri-hökumət təşkilatları tütün məmulatının istehlakına nəzarət üzrə proqramlar hazırlaya, həyata keçirə və bununla əlaqədar müvafiq təkliflər irəli sürə bilərlər.

**M a d d ə  2 3 . Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**M a d d ə  2 4 . Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın ödənilməsi**

24.1. Tütün və tütün məmulatı haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan ziyanın həcmi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

24.2. Vurulan ziyanın ödənilməsi təqsirkar olan şəxsləri qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətdən azad etmir.

**M a d d ə  2 5 . Mübahisələrin həlli**

Tütün və tütün məmulatının istehsalı və dövriyyəsi ilə bağlı olan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

**M a d d ə  2 6 . Qanunun qüvvəyə minməsi**

Bu Qanun 1 yanvar 2002-ci ildən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 iyun 2001-ci il
№ 138-IIQ

**"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda 30 dekabr 2025-ci il tarixli, № 338-VIIQD dəyişiklik edilməsi barədə AR Prezidentin imzaladığı Qanun ilə təsdiqlənmiş əlavə və dəyişikliklər daxil edilib** [https://president.az/az/articles/view/71395](https://president.az/az/articles/view/71395)

[1] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 1.0.4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.0.4. tütün məmulatı – tütün yarpağından çəkmək üçün hazırlanmış, tərkibində nikotin, tütün qatranı və digər maddələr olan və nikotinə aludəlik yaradan məhsul (siqaretlər, papiroslar, siqarlar, siqarillalar və çubuq tütünü);~~

[2] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 1.0.5-ci maddədə "**tütün və tənbəki yarpağında və tüstüsündə**" sözləri "**tütünün və tənbəkinin tərkibində**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 sentyabr 2009-cu il tarixli **883-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287)** ilə 4.0.6-cı maddəsində "**tütün məmulatını kvotalaşdırmaq**" sözləri "**tütün məmulatına tarif kvotalarını müəyyən etmək**" sözləri ilə əvəz edilmişdir.

[4] 01 fevral 2007-ci il tarixli **236-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 397**) ilə 5.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.2. Super etil tütün toxumlarının istehsalı müvafiq elmi-tədqiqat müəssisələrinin təcrübə bazalarında, elit və yüksək reproduksiyalı toxumların istehsalı isə ixtisaslaşdırılmış təsərrüfatlarda müqavilə əsasında həyata keçirilir.~~

[5] 01 fevral 2007-ci il tarixli **236-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 397**) ilə 6.1-ci maddədə "**normalara**" sözü "**şərtlərə**" sözü ilə əvəz edilmişdir.

[6] 3 dekabr 2002-ci il tarixli 388-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 6**) ilə 8.2-ci maddədə "**Belə kreditlər hesabına həyata keçirilən layihələr çərçivəsində becərilən tütün əkinlərinin (məhsulun) təbii fəlakətdən sığortalanması büdcə vəsaiti hesabına aparılır**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.2. Qiymətli və keyfiyyətli tütünün istehsalını stimullaşdırmaq məqsədilə tütün istehsalçılarına və tütün emalı müəssisələrinə azı bir il müddətinə verilən güzəştli kreditlər üzrə güzəşt məbləği sahibkarlığa yardım fondunun və bu kimi digər proqramların vəsaiti hesabına ödənilir. Belə kreditlər hesabına həyata keçirilən layihələr çərçivəsində becərilən tütün əkinlərinin (məhsulun) təbii fəlakətdən sığortalanması büdcə vəsaiti hesabına aparılır.~~

[7] 3 dekabr 2002-ci il tarixli 388-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 6**) ilə 8.3-cü maddədə "**və tütün əkinlərinin (məhsulunun) sığortalanması**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.3. Məqsədli kreditlərin verilməsi, qaytarılması və tütün əkinlərinin (məhsulunun) sığortalanması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.~~

24 fevral 2023-cü il tarixli **823-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 31 mart 2023-cü il, "Azərbaycan" qəzeti, 1 aprel 2023-cü il, № 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 334)** ilə 8.3-cü maddəsində "**Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq**" sözləri "**Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla**" sözləri ilə əvəz edilmişdir.

[8] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 13.2-ci maddədə "**siqaret**" sözü "**tütün məmulatı**" sözləri ilə əvəz edilmişdir.

[9] 19 aprel 2002-ci il tarixli 310-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 240**) ilə 13.3-cü maddəsində "**istehsal olunduğu tarix**" sözlərindən sonra "**və onların 18 yaşına çatmamış şəxslərə satılmasının qadağan edilməsi**" sözləri əlavə edilmişdir.

2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 13.3-cü maddədə "**və tütün qatranının**" sözləri "**, tütün qatranının və karbon monoksidinin**" sözləri ilə əvəz edilmişdir.

[10] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 14.3.4-cü maddədə "**siqaret**" sözü "**tütün**" sözü ilə, "**və tütün qatranının**" sözləri isə "**, tütün qatranının və karbon monoksidinin**" sözləri ilə əvəz edilmişdir.

[11] 18 dekabr 2015-ci il tarixli **61-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 19 yanvar 2016-cı il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 28)** ilə yeni məzmunda 14.3.4-1-ci maddə əlavə edilmişdir.

[12] 18 dekabr 2015-ci il tarixli **61-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 19 yanvar 2016-cı il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 28)** ilə yeni məzmunda 15.3.3-1-ci maddə əlavə edilmişdir.

[13] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 15.3.4 və 15.6-cı maddələrdə "**siqaret**" sözü "**tütün**" sözü ilə əvəz edilmişdir.

---

[14] 2 noyabr 2018-ci il tarixli **1327-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2476)** ilə 15.4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~15.4. Zəruri hallarda tütün məmulatı satıcılarının alıcılardan onların yaşını təsdiq edən sənədi tələb etmək hüququ vardır.~~

[15] 18 dekabr 2015-ci il tarixli **61-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 19 yanvar 2016-cı il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 28)** ilə 16.2.4-cü maddədə "**çox olduqda**" sözlərindən sonra "**, yaxud tütün və ya tütün məmulatları genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda**" sözləri əlavə edilmişdir.

[16] 8 iyul 2022-ci il tarixli **586-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 5 avqust 2022-ci il "Azərbaycan" qəzeti, 6 avqust 2022-ci il, № 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 833)** ilə 16.2.9-cu maddədə "**qanunvericilikdə**" sözü "**qanunda**" sözü ilə əvəz edilmişdir.

[17] 8 iyul 2022-ci il tarixli **586-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 5 avqust 2022-ci il "Azərbaycan" qəzeti, 6 avqust 2022-ci il, № 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 833)** ilə yeni məzmunda 19.1-1-ci maddə əlavə edilmişdir.

[18] 1 dekabr 2017-ci il tarixli **887-VQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2017-ci il, № 290, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, I kitab maddə 2244)** ilə "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci və 21-ci maddələri ləğv edilmişdir.

[19] 29 noyabr 2016-cı il tarixli **414-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 fevral 2017-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 2)** ilə 20.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 20.1.5-ci maddə əlavə edilmişdir.

[20] 29 noyabr 2016-cı il tarixli **414-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 fevral 2017-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 2)** ilə 20.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi

~~20.2. Tütün məmulatının istehsalçıları tütünün və tütün məmulatının reklamını əks etdirməyən sosial, mədəni və təhsil tədbirlərinin sponsorluğu və reklamı zamanı öz firma adlarından maneəsiz istifadə edirlər.~~

[21] 29 noyabr 2016-cı il tarixli **414-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 fevral 2017-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 2)** ilə yeni məzmunda 20.3-cü maddə əlavə edilmişdir.